KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# KÜRD DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 4 (248) 20-26 yanvar, Çileya paş, sal 2014
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: / Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

## İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir


Səh. 8

## Serokê Herêma Kurdistanê bi serdanek berev welatên Ewrupa birêket


Səh. 5

## QANLI YANVAR DEYİL, ŞANLI YANVAR – AZADLIQ DASTANI


Səh.11

## DAMEZIRANDINA 15-SALIYA "KURDISTAN TV" PÎROZBE


Səh.8

## Ban Ki-moon li Kurdistanê bi Kurdî axaft


Səh.12

## Altan Tan: Kemalistlerle işbirliğinden bir şey çıkmaz


Səh.9

## Gelo vê carê pirs çareser dibin?

## Dersim Ortak Bellek Platformu, sonuç bildirgesini açıkladı
Səh. 12

## Президент Барзани встретился с Генеральным секретарем ООН
Səh. 15

## Divê em ji her demî zêdetir doza serxwebûnê bikin
Səh. 9

## Qarsda 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb
Səh. 3

## Türkiyə hökuməti interneti məhdudlaşdırır
Səh. 3

## D.X.B û Samaritans Purse pêkve alîkariya penaberên Rojava dikin
Səh. 9


Səh. 3

## Milli Elmlər Akademiyası: Nizami Gəncəvinin kürd kökləri olub


Səh. 7

## ƏDALƏTSİZLİYƏ DÖZMƏYƏN KÖVRƏK QƏLBLİ ŞAİR


Səh. 6

## 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu


Səh.4

## İL GƏLDİ, GETDİ

# İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir

Qanlı 20 Yanvar hadisələrindən 24 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumxalq hüzn günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.

1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. İyirmi dörd il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşun birləşmələri Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucalmışlar.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğından 24 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə dərin nifrətini bildirir. Hər il yanvarın 20-də minlərlə insan Şəhidlər xiyabanını ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edir. 20 Yanvar faciəsi mahiyyətinə görə dövlətin öz xalqına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ, Azərbaycan SSR Konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. O gecə keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsini, beynəlxalq hüquq normalarını, həmçinin iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdur. Respublikanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin isə bu faciədən sonra da yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən əllərini çəkmədilər. Həmin vaxt Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev onların əksinə olaraq, həyatını təhlükədə qoyaraq faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi və Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.





Lakin bu qanlı qırğın Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Prezident İlham Əliyev “Əbədi məşəl” abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

## İlham Əliyev Əfqanıstanının Azərbaycandakı səfirini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir



Prezident İlham Əliyev Əfqanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Şaker Kargarı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi işinə verdiyi töhfəyə görə səfir Şaker Kargara təşəkkürünü bildirdi. Prezident İlham Əliyev səfiri öz ölkəsinin ticarət və sənaye naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, sənaye və digər sahələrdə inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əməkdaşlığımızın bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olundu.

## İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri ilə görüşmüşdür

Prezident İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri ilə görüşmüşdür. Görüşdə çıxış edən NATO-nun baş katibi Anders Foq Rasmussen Azərbaycan-NATO əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi, Prezident İlham Əliyevin budəfəki səfərinin qarşılıqlı əlaqələrə mühüm töhfə verdiyini vurğuladı. Sonra Prezident İlham Əliyev çıxış etdi. Azərbaycan dövlətinin başçısı NATO-Azərbaycan əlaqələrinin yaxşı tarixə malik olduğunu söylədi və bu əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi, hazırda Azərbaycan hərbçilərinin Əfqanıstanda sülhyaratma əməliyyatlarında fəal iştirak etdiklərini dedi. Prezident İlham Əliyev son illərdə ölkəmizin sürətlə inkişaf etdiyini, iqtisadi baxımdan böyük uğurlar qazandığını, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini bildirdi.



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistanın Azərbaycana təcavüzü və işğalın ağır nəticələrindən söhbət açdı, danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə məlumat verdi.

NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri çıxışlarında Azərbaycanın NATO ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdilər, ölkəmizin Əfqanıstandakı sülhyaratma əməliyyatlarında fəal iştirakını vurğuladılar. Daimi nümayəndələr Azərbaycanın tranzit, maliyyə yardımı və digər sahələrdə bu prosesə xüsusi töhfə verdiyini bildirdilər. Onlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini diqqətə çatdırdılar. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu xüsusi qeyd edən daimi nümayəndələr artıq bu sahədə uğurlu əməkdaşlığın qurulduğunu, Trans-Anadolu, Trans-Adriatik və “Şahdəniz-2” kimi iri enerji layihələrinin bu prosesə mühüm töhfə verdiyini bildirdilər. Bununla da Prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatdı.

***president.az***

# Qarsda 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb

Azərbaycanın Qarsdakı baş konsulluğu 20 Yanvar faciəsinin




ildönümü ilə bağlı anma mərasimi təşkil etmişdir.

Publika.az AzərTAc-a istinadən xəbər verir ki, mərasimdə iştirak edən Qars vilayətinin rəhbərliyi, ölkəmizin bu şəhərdəki diplomatik nümayəndəliyinin əməkdaşları və ictimaiyyətin təmsilçiləri 20 Yanvar şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla anmışlar.

Türkiyənin və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsindən sonra çıxış edən ölkəmizin Qarsdakı baş konsulu Ayxan Süleymanov xalqımızın müstəqillik uğrunda mübarizəsindən, 20 Yanvar faciəsinin səbəblərindən ətraflı bəhs etmişdir. Diplomat vurğulamışdır ki, Azərbaycanın milli azadlıq hərəkatını boğmaq istəyən qüvvələr dahi siyasətçi Heydər Əliyevin SSRİ rəhbərliyindən uzalqşdırılmasından istifadə etmişlər. Bakıda və Dağlıq Qarabağda fəallaşan erməni separatçılarına Sovet İttifaqı rəhbərliyindən dəstəyin artırılması Qanlı Yanvar faciəsini törədilməsi ilə nəticələnmişdir. O ağır günlərdə həyatını təhlükəyə atan Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bu qətliamı törədənləri kəskin şəkildə qınamışdır. Qars bələdiyyəsinin sədri Nevzat Bozkuş və Qars Qafqaz Universitetinin professoru Hacali Nəcəfoğlu çıxışlarında Azərbaycan və Anadolu türklərinin erməni quldurlarına qarşı mübarizəsindən bəhs etmiş, 20 Yanvarı xalqımızın azadlıq mübarizəsinin şanlı səhifəsi kimi dəyərləndirmişlər.

Mərasimdə 20 Yanvar faciəsindən bəhs edən sənədli film nümayiş olunmuşdur.

# Türkiyə hökuməti interneti məhdudlaşdırır

İnternetə girişi məhdudlaşdırmağa və beynəlxalq şəbəkədə olan istifadəçilərin fəaliyyətlərinin monitorinqini aparmağa kömək edəcək qanun layihəsi etirazlara səbəb olub



Dünya Türkiyədə hökumətə internetə girişi məhdudlaşdırmağa və beynəlxalq şəbəkədə olan istifadəçilərin fəaliyyətlərinin monitorinqini aparmağa kömək edəcək qanun layihəsi qaynar mövzuya çevrilib. ANS PRESS-in məlumatına görə, mövcud qanunvericiliyə düzəliş parlament səsvermesindən keçəcəyi təqdirdə hökumət eyni zamanda bütün internet istifadəçilərinin 2 il ərzindəki fəaliyyətləri barədə məlumatları saxlamaq səlahiyyətinə malik olacaq.

Qanun qəbul olunacağı təqdirdə, İnternet istifadəçiləri hökumətin nəzarətində "İnternet Birliyi" adlı assosasiyaya daxil olmaq məcburiyyətində qalacaq. Tənqidçilər qanun layihəsinin siyasi motivli olduğunu və Baş nazir Rəcəb Tayyib Erdoğanın internet üzərindəki olan nəzarətini daha da sərtləşdirəcəyini düşünürlər. Rəsmi Ankara bunun senzura kimi qələmə verilməsini və bu yöndə ittihamları qəti şəkildə rədd edir və qanun layihəsinin əsas məqsədinin insanların şəxsi həyat toxunulmazlığının qorunması olduğunu bildirir. Bu qanun layihəsi isə yüzlərlə antihökümət etirazçılarını Ankara və İstanbulda küçələrə qaytarıb. Gecə saatlarında etirazçıları küçələrdən dağıtmaq üçün iğtişaş polisi rezin güllələr, gözyaşardıcı qaz və su şırnaqlarını işə salıb. İstanbulda polis Taksim meydanına və İstiqlal küçəsinə toplaşan etirazçı qrupların qurduğu (barikadaları) dağıdıb.

Etirazçılar isə polisi alışqan materiallardan atəşə tutub, qarşı tərəf su şırnaqları ilə etirazçıları qovub. Ankarada isə gecə saatlarında küçələrə axışan etirazçılar, "Təslim olma" "Tayyib oğru" kimi hökumətə qarşı şüarlar səsləndirib.

İnternetlə bağlı etirazlar Erdoğan hakimiyyətinin korrupsiya istintaqı ilə üzləşdiyi bir vaxta təsadüf edib. Bu administrasiyanın 11 il ərzində üzləşdiyi ən ağır böhran kimi qiymətləndirilir. Türkiyədə hökumət əleyhinə etirazlar əsasən sosial şəbəkələr üzərindən təşkil olunduğundan, Erdoğan Tvitteri "sosial təhdid" adlandırıb. Qalmaqallı qanun layihəsinin qarşıdakı həftələrdə parlamentə çıxarılacağı gözlənilir.

# Xamneyi 900-ə yaxın məhbusu əfv etdi



İranın ali lideri Ayətullah Əli Xamneyi İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s) və İmam Cəfər Sadiqin (ə) doğum günü münasibətilə həbsdə olan 878 nəfərin əfv olunması barədə fərman imzalayıb. Əfv olunanlar siyasi və mülki məhbuslar, həmçinin hərbi cinayətlərə görə həbs edilmiş şəxslərdir.

Qeyd edək ki, İran Məhkəmə Sisteminin rəhbəri Sadiq Amoli Məhəmməd Peyğəmbər (s) və İmam Cəfər Sadiqin (ə) doğum günü münasibətilə ali lidere məktubla müraciət edib. Məktubda 878 məhbusun əfv edilməsi xahiş olunub. Ə.Xamneyi həmin məhbusların əfv olunması barədə fərman imzalayıb.

# Döyüşçülər Bağdadda həbsxananı ələ keçiriblər



Döyüşçülər İraqın paytaxtı Bağdadın Təvabici rayonundakı həbsxananı ələ keçirərək dustaqları azad ediblər. Polisin məlumatına görə, silahlı qruplaşmanın üzvləri həbsxananın binasını minaatanlardan atəşə tutublar. Bundan sonra terrorçular müəssisəni ələ keçirib və dustaqların bir hissəsini azad ediblər. Atışma nəticəsində mühafizəçilər xəsarət alıblar. Eyni vaxtda döyüşçülər Bağdadın Mənsur rayonundakı iri ticarət mərkəzini atəşə tutaraq ələ keçirməyə cəhd ediblər. Terrorçular binaya və yaxınlıqdakı mağazaya güclü atəş açıblar. Lakin təhlükəsizlik qüvvələri onların bu cəhdinin qarşısını ala biliblər. Ərazi İraq ordusunun bölmələri tərəfindən mühasirəyə alınıb. DİN bəyan edir ki, bu hücumlar yaxşı təşkil edilmişdi və bir-biri ilə əlaqəsi var idi.

# Türkiyə yönümlü müxalifətçilər uduzaraq Suriyanı tərk elədi

MDB respublikalarından gəlmiş yaraqlılar Azad Suriya Ordusunu



Türkiyəyə sıxışdırıb. Dünya Suriya müxalifəti daxilində Azad Suriya Ordusu (ASO) ilə "İraq və Suriya islam dövləti" (İSİD) qruplaşmaları arasında gedən savaş ikincilərin qələbəsi ilə nəticələnib. ANS PRESS Türkiyə mətbuatına istinadən bildirir ki, 50-yə yaxın ASO üzvü Suriyanın Türkiyə ilə sərhəd Carablus rayonunda İSİD döyüşçülərinə qarşı döyüşə bilməyiblər. Onlar silahlarını Türkiyə sərhədçilərinə təhvil veriblər. Qeyd edək ki, ASO Suriya müxalifətinin Türkiyə tərəfindən dəstəklənən qoludur, yerli kürdlərdən, türkmənlərdən və ərəblərdən təşkil olunub. 10 minə qədər döyüşçüsü olan İSİD-in isə 2 min döyüşçüsü MDB respublikalarından gəlmiş ələfilərdir. Onların 700 nəfəri qafqazlıdır və bunların içərsində 200-dən çox azərbaycanlı var. İSİD-ə Əbu Umar Şişani adlı bir çeçen rəhbərlik edir. İSİD-in Səudiyyə Ərəbistanı tərəfindən maliyyələşdirildiyi ehtimal edilir.

# Milli Elmlər Akademiyası: Nizami Gəncəvinin kürd kökləri olub

*Redaksiyadan: Cənablar, həqiqəti inkar etmək olmaz. Hörmətli nizamişünaslar, siz gözəl bilirsiniz ki, Nizami*



*Gəncəvi Paytaxt Gəncə şəhəri olmaqla Şəddadi-Kürd dövləti dövründə yaşamışdır və bu gözəl dünya şöhrətli "Xəmsə"ni yaratmışdır. Nizami Gəncəvi Xəmsəni fars dilində deyil, kürd dilinin sorani ləhcəsində yazmışdır. Hansı ki, bu gün də İraq Kürdüstan bölgəsinin Süleymaniyə şəhəri Kirmanşah və digər əyalətlərdə bu ləhcədə danışılır. Bu məsələni aydınlaşdırmaq üçün istərdim AMEA bir elmi konfrans təşkil etsin və dünya nizamişünaslarını eləcə də, kürd xalqının sorani ləhcəsində olan alimləri bu konfransa dəvət etsinlər. Məncə bundan sonra Nizaminin hansı milli mənsubiyyətə malik olması və "Xəmsə"ni hansı dildə yazması aşkar olacaqdır.*

*Sizlərə bildirmək istəyirəm ki, Azərbaycanda Sultan bəy, Xosrov bəy, Fətəli xan Xoyski, Heydər Əliyev kimi şəxsiyyətlər eləcə də, Azərbaycan SSR-i yaranandan bu günə kimi Sosialist əməyi qəhrəmanı, xalq yazıçısı Süleyman Rəhimovun kürd olmasına baxmayaraq Azərbaycan xalq yazıçısı kimi adlanırdı. Bu siyahını artıra bilərik: Şamo Arif, Əli Vəliyev, Səməd Vurğun, Hüseyn Kürdoğlu, Şamil Əsgərov kimi şair və yazıçılarımızın Azərbaycan yazıçısı və şairi kimi qələmə verilməkdədir. Ola bilməz ki, Şəddadi-Kürd dövləti dövründə yaşamış və öz əsərlərində kürdlüyü haqqında məlumat versə də, zaman-zaman bu məlumatları təhrif etməyə çalışmışlar. Lakin, zaman yeri gəldikdə həqiqəti göz qabağına çıxarır. Kürd qızı olur çin qızı, kürd dili olur fars dili, sonda da, hər vəchlə Nizami Gəncəvini baxmayaraq ki əsərlərində türk dilinin onlara əskiklik gətirəcəyindən danışaraq, bu həqiqəti bildirməsinə baxmayaraq, türkləşdirməyə çalışılır. Cənablar, həqiqəti inkar etmək olmaz.*

"O, özünü saf türk sözü ilə "ikdiş", yəni "metis" adlandırıb". İran İslam Respublikasında Nizami Gəncəvinin fars şairi olması ilə bağlı ortaya atılan fikirlər Azərbaycan ədəbiyyatşünas və alimlərini xeyli narahat edib. Mycity.az Simsar.az-a istinadən xəbər verir ki, Azərbaycan şairi olan və Gəncədə doğulan Nizaminin, əsərlərini farsca qələmə alsa da türk şairi olduğunu bir daha vurğulamaq üçün ölkəmizdə şairin 870 illik yubileyi keçirilib, Romada abidəsi ucaldılıb, Gəncədə Beynəlxalq Nizami Mərkəzi təşkil olunub.

Yaranan yanlış fikrin aradan qaldırılması üçün Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Ədəbiyyat İnstitutu Nizami Gəncəvinin fars şairi olmadığını sübut etməyə çalışır. Dünən AMEA Rəyasət Heyətinin iclasında da həmin məsələ gündəmə gətirilib. Akademiyanın prezidenti, akademik Akif Əlizadə öz çıxışında bildirib ki, "Dahi Azərbaycan şair və mütəfəkkiri Nizamiyə bir İran şairi kimi yanaşmanı aradan qaldırmaq üçün elmi fəaliyyətini nizamişünaslığa bağlamış alimlərimizin də üzərinə mühüm vəzifələr düşür.

Onların apardığı tədqiqatlar böyük əhəmiyyət kəsb edir. Uğurlu tədqiqatların bir qismi məhz Ədəbiyyat İnstitutunda aparılır və mühüm nəticələr əldə olunur". Daha sonra institutun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü professor Teymur Kərimli "Nizami Gəncəvi yaradıcılığında azərbaycançılıq" adlı məruzə ilə çıxış edib. O, Nizami Gəncəvnin nə üçün doğma dildə yazmamasının obyektiv və subyektiv səbəblərindən danışıb. Və şairin həyatına dair faktları ortaya qoyaraq, onun əsl Azərbaycan şairi olduğunu əsərləri ilə sübut etdiyini vurğulayıb: "Nizami Gəncəvinin XII əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtlarından biri olmuş Gəncədə doğulduğunu və ömrü boyu Azərbaycanda yaşayıb yaratdığını birmənalı şəkildə təsdiq edilir. Şairin dilində çoxlu türk sözləri işlənib. "Leyli və Məcnun" poemasında öz anasını kürd qızı, "Xosrov və Şirin" poemasında isə özünü saf türk sözü ilə "ikdiş", yəni "metis" adlandırıb. O, əsərdə "sirkə" deyərkən öz kürd anasını, "bal" deyərkən isə türk atasını nəzərdə tutub".

Qeyd edək ki, AMEA Rəyasət Heyətinin qərarına görə, Nizami Gəncəvinin yaradıcılığında Azərbaycanla bağlı motiv və obrazlar daha əhatəli şəkildə araşdırılacaq, Rusiya, Avropa və Amerikanın şərqşünaslıq mərkəzlərində təbliğ məqsədi ilə elmi ezamiyyətlər həyata keçiriləcək.



Nəriman Əyyub

## RÜBAİLƏR

*(Əvvəli ötən saylarımızda)*

Həqiqəti demək hünərdi, hünər,
Bu insan qəlbində olan bir təpər.
Hünərin yoxdursa yalan danışma,
Boş sözlə günlərin gedəcək hədər..
***
Ölümə bərabər tənha bir ömür,
İşləməyən zaman paslanır dəmir.
İnsan da elədir işləmədikcə,
Bədəni qaralır sanki bir kömür.
***
Hirsli başda ağıl olmadığı tək
Onu hirsləndirmək olmasın gərək.
Nə yalan danışma, nə hirsli olma,
Qoy səni yüksəltsin daimi əmək.
***
Elmsiz adamlar biliksiz olur,
Elmli adamlar kamala dolur.
Havayı ömrünü boş keçirənlər,
Başa düşən zaman saralıb-solur.
***
Haqsız olmağını etiraf etsən,
Başa düşüb onu söyləyirsən sən.
Həqiqəti desən hörmətin olur,
Onda səhv etməzsən bir də yenidən.
***
Dilin dediyini dana bilməzsən,
Gülməyin gəlməsə onda gülməzsən.
Doğrudur ölümlər haqdır dünyada,
Ölümün gəlməsə heç vaxt ölməzsən.
***
Ağıllı baş güclü qolla qalıbdı,
Ağılsız baş güclü olsa da tipdi.
Nə qədər ağılı göstərsə özün,
İnsan kimi insanlıqdan itibdi.
***
Məhəbbəti qanan etməz xəyanət,
Məhəbbət insançün böyük bir sərvət.
Məhəbbəti qazanmayan bir insan,
Olacaqdır ona daimi töhmət.
***
Gedəndə iz qoy ki yada düşəsən,
İz qoymasan onda bilinmir nəsən.
Pisliyi eyləyib getsən dünyadan,
Onda insan deyil bir müqəvvasan.
***
Divar tez yıxılar, olmasa təməl,
Yararsız təməllər eyləyir əngəl.
Ev tikəndə təməli möhkəm eylə,
Etməyəndə uçar, boşca qalar əl.
***
Dövran bir güneşdir, ömürlər də qar,
Güneş əridəndə olur tari-mar.
Heç də güvənmə ki, ömrün xoş keçir,
Bir də gördün getdin, məzarındır dar.
***
Düzlüyü sevəndi, həqiqət yazan,
Düz yazan daimi olmayır azan.
Həqiqəti söylə, düz danış ki sən,
Öndədir qıl körpü, həm də qır qazan.
***
O körpüdən keçmək böyük hünərdi,
Körpü də keçirir sınanmış mərdi.
Namərdlik eyləyib yolunu azsan,
Körpü keçirəmməz sən tək namərdi.
***
Namərd namərdliklə öyünməməli,
Əgər öyünürsə demək o dəli.
Bu dünyada ancaq yaxşılıq qalır,
Yaxşıların qalır yaxşı əməli.
***
Zəhmətsiz varlanan öyünməsin heç,
O var halal deyil, axır ondan keç.
Şüurlu övlada var lazım deyil,
Şüursuzsa varı tezcə olar puç.
***
Özü qazanacaq, şüuru varsa,
Heç qazana bilməz əqilli darsa.
Əqilsiz tənbələ ha güzəşt eylə,
Qazanmaz əgər ki işləmək arsa.
***
Tənbəli ha buyur, olammaz fayda,
Çünki o tənbəllik ondadır qayda.
Qeyrətli işini yaxşıca bilir,
Onu qorxutmayır nə qış, nə yay da.
***
Ay azan özünü çəkmə heç zaman,
Sən ki uduzmusan gənclik olan an.
Bundan sonra ola bilməz faydası,
Eylədiklərini nə gizlət, nə dan.
***
Görüblər, görmüşəm eylədiyini,
İndi düzəldirsən onun nəyini?
Eylədiyin işi hamı da bilir,
Fərq qoymadın nökərini, bəyini.
***
İndisə özünü sanırsan mələk,
İndi nə xəlbir yox, nə də ki ələk.
Ələnməmiş unlar yoğrulur gündə,
Başımıza gündə açılır kələk.
***
Kələyi açmağa yoxdur qüvvəmiz,
Həqiqəti söyləməyə yoxdur iz.
Etiraz etsən də keçməyir sözün,
Ağzını yumursan indi tər-təmiz.
***
Yummasan da onun yoxdur faydası,
Pozulubdur hər bir şeyin qaydası.
Hüzürün də düşsə, göstərişlər var,
İcazəsiz keçirmək olmur yası.
***
Adətlər də başbilənə bağlıdır,
İcra başçısının zəif ağlıdır.
İcazəni vermir üç gündən artıq,
Əməl eyləyənlər qəlbi dağlıdır.
***
Düzlüyü də sevir düz sözlər yazan,
Düz yolda olanlar olmayır azan.
Düz sözü söyləmək daha gözəldir,
Düz ol rəhmətliyi diriykən qazan.
***
Qüsurludur gündə zarafat etmək,
Zarafat eyləmək lazımdır tək-tək.
Bəzən zarafatlar tərsinə dönür,
Davaya çevrilir hər olan hənək.
***
Dövlət malda deyil, kamalda olur,
Ağıl yaşda deyil, saf başda qalır.
Ağılsısda olmaz nə dövlət, kamal,
Ağılsızlar ağılsız da qocalır.
***
Yaxşılıq eyləmək özünə qayıdar,
Pislik eyləyənə axır olar ar.
Pisliklər eyləmə, nə də arlanma,
Yaxşılıqlar daim qalır yadigar.
***
Acımamış yemə, doymamış əl çək,
Hər zaman ziyandı, hər artıq yemək.
Yeməkdən tez ayrıl, qoy gözün qalsın,
Normadan çox yemək ziyandır demək.
***
Xoşbəxtdi qazancı rahatca yeyən,
Bədbəxtdi özünü gündəlik öyən.
Allah verib sənə, özünü öymə,
Öyünsən olarsan dizini döyən.
***
Sərvətlisə, səxavəti olmayan,
Əslində yoxsuldur, olmaz bir sayan.
Toplayıb üstündə yatır ilan tək,
Söyləyən də yoxdur, yatıbsan oyan!
***
Çalış həddən artıq özünü öymə,
Nə də saxladığın nökəri döymə.
Allah yaratdığı bəndədir o da,
Nə də nakişilik eyləyib söymə.
***
Sözü aşkarlıqda demədikdə sən,
Gizlində də demə, faydasız həmən.
Çalış ki mərdanə de həqiqəti,
Doğruluğu danış daim yenidən.
***
Xəbər ürək açan deyilsə demə,
Tanış olmadığın yeməyi yemə.
Əgər oxuyursa gözəl xanəndə,
Qulaq as həm zilə, həm də ki bəmə.
***
Pis edən yaxşılıq qazana bilməz,
Yaxşılığa yaxşılıq olur əvəz.
Yaxşılıq eyləyən utanmaz heç an,
Yaxşılıq edənin lampası sönməz.

**(ardı var)**

## GELÎ KURDA, HEMÛ HEVRA BÊJİN WELAT



Barîyê Bala

Îro dîsa, xwînxarêd me pir dir bûne,
Diranêd xwe tûj kirine, komkar bûne.
Kîn û buhza nava xwe da avîtine,
Dest dane hev, ser simteka sekinîne.
Şeref, namûs, bîr kirine nolî her car,
Quta gelê me kirine armanc, qirar.
Firsend îcar ji alê meye, wê bernedin,
Sist bûna me, boy gelê me êş û derdin.
Neyarêd me bê îtbarin, him bi zirar,
Bê murvetin, bê însafin, pir bi qirar.
Wekî ev dem, ji destê me bê berdanê,
Navê Kurdê rûyê dinê bê hildanê.
Wede hatye, hemû yekbin, pişt bidine hev,
Pêş neyarê xwe bisekinin, îdî hûn tev.
Gişk bi hevra, bi dengekî, bêjin «WELAT»,
Ahil, cahil, hemû gir-hûr, bêjin «WELAT».
Dayîk û xûşk, bav û bira, bêjin «WELAT»,
Dapîr, bapîr, dua bikin, bêjin «WELAT».
Zilam û dot, çekê hildin, bêjin «WELAT»,
Zarêd şîrmêj, megrîn, megrîn, bêjin «WELAT».

Hemû hevra, hemû hevra, bêjin «WELAT»,
Şev û roja, gav-siheta, bêjin «WELAT».
Bê welatî – bê rusqete û bê ware,
Ji dayîna Rebbê jorîn ew bê pare.
Ew bê şûne, bê hêlîne, bê piştovan,
Hemû fesla sergerdane sere rîyan.
Şikir, şikir, îdî dinê hemû zane,
Eva qurna bîst û yekê yê Kurdane.
Kulmê sere har neyar da hûn zexm lêxin,
Dest bidine hev, beraz zevya xwe zû derxin.
Dem hatiye, hîvya kesî hûn nemînin,
Azaya xwe destê zorê hûn bistînin.



Hüseyn Kürdoğlu

## İL GƏLDİ, GETDİ

**(Əziz qardaşım Seyfi müəllimin unudulmaz xatirəsinə)**

Ah, nə tez barışdın ölümlə, qardaş,
Üstünə didərgin el gəldi, getdi.
Əydi belimizi həsrətin səsin,
Yorğun çiynimizdən il gəldi getdi.

Dünyaya gələli nələr görmüşük,
Dolaşan ip təki ömür çəlpəşik.
Təzə həyət-baca, təzə ev-eşik,
Çiçəklər açıldı, gül gəldi getdi.

Zəhərdən acıdır şirin sözümüz,
Bu möhnət yükündən əsdi dizimiz.
Laçın çeşməsinə döndü gözümüz,
Çağladı dərd ilə, sel gəldi getdi.

Aman, nələr çəkdi bəlalı başın,
Qəribdir torpağın, qəribdir daşın.
Məzarın üstünə bacın-qardaşın,
Bağrının başında mil gəldi getdi.

Gözəl balaların istəkli, əziz,
Xatirən günəşli, mavi bir dəniz.
Nə çarə, bir əsim yeldir ömrümüz,
Sanki ömür deyil, yel gəldi getdi.

***5.01.2003***

## GƏLSİN O GÜN

**(Sazımızın böyük ustadı Ədalətə)**

Yaralıyam, qanım kəsmir, Ədalət,
Yetişəsən, dar ayaqda çalasan.
Bəlkə yaram qaysaq tuta sinəmdə,
Tale məndən dönən çağda çalasan.

Sal qayasan, köksündə bir şəlalə,
Kim içmədi bu meydən bir piyalə?!
Ya tufandır, ya cəngidir, ya nalə,
Dünya boyda bir yığnaqda çalasan!

Yeddi ildir dərdin-qəmin diliyəm,
Yel ağzında Yanıq Kərəm külüyəm.
Dəlidağdan ayrı düşən dəliyəm,
Gəlsin o gün, Dəlidağda çalasan.

Bu müsibət nə uzundur, nə uzun,
Qovğası çox, bəlası çox oğuzun.
Söykənəsən ağ çiyninə Qırxqızın,
Zəfər günü Qarabağda çalasan.

Qismət ola, qoşa gedək Laçına,
Saz tutasan gələn elin köçünə.
Bir baxasan saysız qurban qoçuna,
Qırxbulaqda, Yüzbulaqda çalasan.

Qızılquşsan, qanadların məhəbbət,
Haqq aşığı, tanrıdandır bu qismət.
Yurdumuza səadətdir, səadət,
Hər obada, hər oymaqda çalasan.

Adın gəzsin gərək bu yer üzünü,
Min illərcə el axtarar izini.
Kürdoğlunun gözüyaşlı sözünü,
Ya Bakıda, ya Qazaxda çalasan.
Yeddi ildir qanım kəsmir, Ədalət,
Yetişəsən, dar ayaqda çalasan.

***19.06.1999***

## DUMAN, AY DUMAN

Laçını salma yadıma,
Amandır, duman, ay duman!
Ata yurdunun həsrəti,
Yamandır, yaman, ay duman!

Nə söyləyim qaçqın elə,
Bax gözümdən axan selə.
O yurda dönməyim hələ
Gümandır, güman, ay duman!

Gilgil çayı coşub daşan,
Qayalarda min bir nişan.
Kürdoğlu da dağdan aşan,
Dumandır, duman, ay duman!

***Dəvəçi-Dəhnə kəndi***
***7.12.1997***



Tariyel Cəlil

## KİM DEYİR Kİ, DÜNYA HƏMİN DÜNYADI

Dəyişdirib fəsillərdə yereini,
Seçmək olmur ağıllıdan dəlini.
Şeş-beş verir beqeyrətin zərini,
Kim deyir ki, dünya həmin dünyadı!

Əzəl belə bir quruluş yoxuydu,
Kişilərin gözü, könlü toxuydu,
Şərəflilər şərəfsizdən çoxuydu,
Kim deyir ki, dünya həmin dünyadı!

Şeytan yıxdı bu dünyanın komasın,
Çoxu dandı öz əcdadın, babasın.
Oğul satdı yad qızına anasın,
Kim deyir ki, dünya həmin dünyadı!

Yeddi övlad yetişdirə bir ata,
Qərib eldə, dar qəfəsdə tək yata,
Sonsuz qala, yıxılanda yad tuta,
Kim deyir ki, dünya həmin dünyadı!

Məclislərdə baş sıraya buyuran,
Çörək tapmır el-obasın doyuran.
Kişi olub hər yerindən ayılan,
Kim deyir ki, dünya həmin dünyadı!

Döndəribdi yaxşılardan üzünü,
Haq deyənin tez çıxardır gözünü,
Haqsızlara sipər edib özünü,
Kim deyir ki, dünya həmin dünyadı!

Mən Cəliləm, söz demirəm boşuna,
Cəllad sahib torpağına, daşına,
Baharda da, dözmək olmur qışına,
Kim deyir ki, dünya həmin dünyadı!
Kİm deyir ki, dünya həmin dünyadı!

***30.03.2013.***

## YALAN DÜNYASAN

Nadanı, namərdi göz üstə tutan,
Mərdi taptalayan, nadan dünyasan.
Yaxşını verirsən, namərd əlinə,
Yaxşını yamana satan dünyasan.

Yetim- yesirləri əzib, talayan,
Düz söz danışanı, oda qalayan.
Şeytan övladını öpüb, yalayan,
Dar gündə dadına çatan dünyasan.

Yaxşıya göz yumub, ağız büzəni,
Məzlumu, yazığı yıxıb, əzəni,
Şərəfin taptayıb, arsız gəzəni,
Qaldırıb baş üstə, tutan dünyasan.

Yaxşını, yamanı qanan insanın,
Düzlükdən, düzlərdə qalan insanın,
Həyatı məhv olmuş, talan insanın,
Dərdinlə qəlbində bitən dünyasan.

Qananı, qammaza möhtac edənsən,
Ananı, anmaza möhtac edənsən,
Yananı, yanmaza möhtac edənsən,
Yaxşını odlara atan dünyasan.

Küskün düz danışma, düzdə qalarsan,
Səni odlayarlar, odda yanarsan.
Elə sndırarlar, haqqı danarsan,
Düzü, düz bilməyən, yalan dünyasan.

## Baş redaktordan:

# QANLI YANVAR DEYİL, ŞANLI YANVAR – AZADLIQ DASTANI



*Hərdən biz ata-babalarımızın nəsihətlərini unuduruq, özü də tez unuduruq. Babam Kürd Musa, ömrünün sonuna-yəni 115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin. Çünki, onlar fürsət düşən kimi, öz pis əməllərini həyata keçirəcəklər.*

Mən ona qədər erməni-müsəlman davası görmüşəm. “İtlə yoldaş olanın zopası əlində olmalıdır”, deyə bizə nəsihət verərdi.

İllər keçdikcə bu sözlərin müdrikliyinin şahidi olduq. Şovinistlərin fitvası ilə erməni daşnakları Azərbaycanın əzəli yerləri olan Dağlıq Qarabağ torpaqlarının işğalına başladı. Və düz 24 il əvvəl -1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının başına gətirilən faciələrin ən dəhşətlisi gətirildi. Vətənin istiqlalı və milli azadlığı uğrunda mübarizəyə qalxan qəlbindəki vətən sevgisindən başqa heç bir silahı olmayan əliyalın, günahsız insanlar, təpədən dırnağa qədər ən müasir silahlarla silahlanmış, azğın erməni daşnaklarının və Sovet imperiyası qoşunlarının amansız vəhşiliyinin qurbanı oldular.

Güllü-çiçəkli Bakımızın qara asvalt yolları, xalqımızın azadlığı uğrunda mübarizəyə qalxan, igid oğlan və qızlarımızın qanı ilə boyandı. Xalqımız öz suverenliyi uğrunda mübarizədə ilk şəhidlərini verdi. Paytaxtın Azadlıq meydanından Şəhidlər Xiyabanına qədər qırmızı qərənfillərlə şəhidlərə misli görünməmiş “çələng” hörüldü, matəm çələngi. Onlar öz ölümləri ilə əbədi ölməzlik qazandılar. Şəhidlər Xiyabanı vətən yolunda canlarını fəda vermiş oğul və qızlarımız üçün əbədi mənzil oldu. Al-qırmızı qərənfillər Şəhidlər Xiyabanının rəmzinə çevrildi. Bünövrəsi qanla qoyulan bir quruluşun sonu, qanla da bitməli idi. Belə ki,1986-cı ildə Alma-Atada qazax xalqının qırğını, 1988-ci ildə Fərqanə hadisələri,1989-cu ilin aprelində Tbilisi qətliyamları, 1990-cı ilin yanvarında Bakıda, 1991-ci ildə Vilnus şəhərində qanlı qırğınlar törədildi. Təəssüf ki, Moskva və Bakıda oturan satqın rəhbərlərin hazırladığı cinayətkar planlar həyata keçirildi.



Bakı əhalsi dəhşətli səhnə ilə üz-üzə qaldı. Sinəsi güllələrdən deşik-deşik olmuş insan cəsədləri ürəkləri göynədir, tükürpədici nalələrin sədası ərşə qalxırdı.

20 Yanvara açılan səhərdə 130-dan artıq şəhid, 700-dən artıq yaralı qana boyandı.

Bu hadisələri gizlətməyə çalışan dövlət rəhbərlərinin əksinə olaraq, Moskvada yaşayan və işləyən Ulu Öndər Böyük Heydər Əliyev etiraz əlaməti olaraq Sov.İKP sıralarından çıxması üçün bəyanatla çıxış etdi. Bu, təkcə siyasi partiya üzvünün deyil, uzun müddət Sovet rəhbərlərindən biri olmuş qorxmaz bir şəxsiyyətin cəsarətli hərəkəti idi. Xalq heç vaxt yanılmır, ona görə də gec də olsa qardaş qırğınının vaxtında qarşısının alınması üçün Azərbaycanın xilaskarını Bakıya gətirdi və qısa zamanda yarana biləcək vətəndaş müharibəsinə və hərcmərcliyə son qoyuldu. Xalqımızın, Azərbaycanımızın azadlığı uğrunda canlarını qurban verənlərə mərkəzi Moskva hökuməti terrorist adı versə də, məhz Ulu Öndər Böyük Heydər Əliyevin tarixi xidmətidir ki, 20 Yanvar qırğını Ümummilli faciə səviyyəsinə qaldırıldı və ona hüquqi-siyasi qiymət verildi. Ulu Öndər Böyük Heydər Əliyev şəhidlərin ruhunun yad edilməsinə həmişə böyük diqqət yetirərdi. Onun şəxsən şəhidlər üçün abidə kompleksinin tikdirməsinə nəzarət etməsi, xalq tərəfindən xüsusi qiymətləndirilmişdir. Bu, xalqın gələcəyi üçün atılan mühüm bir addım idi.



İnanırıq ki, 20 Yanvar qəhrəmanları heç vaxt unudulmayacaq, Şəhidlər Xiyabanı xalqımızın inanc yeri və ziyarətgahı olmuş və hər zaman olacaqdır. Ancaq təsəlli ondadır ki, Vətənimiz və xalqımız uğrunda tökülən qanın hesabına Azərbaycanımız azad, Vətənimiz müstəqildir. Azərbaycan xalqı öz müdrik Lideri Ulu Öndər Böyük Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyini əldə etmişdir. Xalqımız yaxşı bilir ki, Ulu Öndər Böyük Heydər Əliyev siyasətini inamla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev cənabları daxili və xarici siyasəti nəticəsində ölkəmizi öndə gedən ölkələr sırasına çıxarmaqla xalqımızın və vətənimizin qarantı olduğunu əməli işi ilə isbat etmişdi.

**TARİX**

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması ilə bağlı Çar Rusiyasının əsrlərlə apardığı mənfur siyasətin yeni şəraitdə davamı idi.

20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirdi.

Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qalxmış bir xalq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıq saçan zəhərli gülləri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi...

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi. Bakıda keçirilən matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi.



20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salınmışdı, radio, televiziya susdurulmuş, onun enerji bloku silahlı hərbiçilər tərəfindən vəhşicəsinə partladılmış, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. Azərbaycan sakit və ölü bir dənizə bənzəyirdi. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 133 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar olmuşdur. Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi. Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış edərə, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.



1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində mühüm addımlar atıldı. 20 Yanvar faciəsinin xalqımızın tarixində yeri və rolu, bu faciənin əbədiləşdirilməsi və bütün dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlər görülmüşdür.

Ümummilli liderin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı verdiyi Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclis 1994-cü il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. Bununla da Prezident Heydər Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi.

Bakı şəhərinin ən hündür yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm “Əbədi məşəl” abidə-kompleksi də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir.

Azərbaycan Prezidentinin 2000-ci il, yanvarın 17-də imzaladığı Fərmanla 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olanlara “20 Yanvar Şəhidi” fəxri adı verilmişdir.

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir. Şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimizi qanımızla və canımızla qorumalı, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik.

***Tahir Süleyman***

# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

**Əvvəli ötən sayımızda**

Bunlar hər şəhərdə bir qımdatxana təşkil edirdilər. İlk dəfə Osmanlı şəhərlərində, sonra isə Rusiyanın ayrı-ayrı şəhərlərində belə qımdatxanalar yaratmağa başladılar. Bu qımdatxanalara bütün siniflərdən şəxs cəlb olunurdu: oxumuş cavanlar, sövdəgərlər, sənətkar və başqaları.

Bu qımdatların icmasının müşavirəsində bir qərar qəbul olundu ki, hər bir iş sahibi qımdatxanalara pul verməlidir. Qımdatxanadan həmin qərara əsasən erməni iş sahiblərinə məktublar göndərib onların qımdatxanaya göstərilən məbləğdə pul göndərməsini tələb edirdilər. Erməni iş sahibi məktubun tələbinə əməl etmədikdə ona qımdatxanadan ikinci dəfə elannamə yazılırdı. Əgər yenə həmin şəxs pul verməkdən imtina edərdisə, üçüncü dəfə onu hədələyirdilər. Bu dəfə də tələbə əməl etmədikdə qımdatlar həmin şəxsin öldürülməsi üçün bir və ya iki nəfər təyin edirdilər. Həmin şəxslər isə nəzərdə tutulmuş adamı öldürüb gizlənirdilər. Heç kəs bilmirdi ki, bu cinayəti kim etdi və hara getdi. Əgər caniləri bilən və tanıyan olsa da, cürət edib heç kəsə deyə bilməzdi. Çünki kimsə canini ifşa etməyə cəhd göstərsəydi, onun özü də qımdatxana quldurlarının sui-qəsdinə məruz qalardı.

Atası nalbənd olmuş Camqarov familiyalı bir erməni Allah təbarək və təalanın iradəsilə tez bir zamanda milyonçu olur. Qımdatlar başqa varlı ermənilər kimi ona da kağızla müraciət edib qımdatxanaya 30 min manat verməsini tələb edirlər. O isə qımdatların tələbinə məhəl qoymayıb Moskvaya gedir. Bu zaman qımdatlar Moskvada yerləşən qımdatxanaya yazırlar ki, o bizim tələbimizə əməl etmədiyinə görə cəzasına çatdırılaraq qətlə yetirilsin.

Moskva qımdatxanasının başçıları özlərinin muzdlu qatillərinin arasında püşk ataraq Camqarovun öldürülməsi tapşırığını onlardan birinə həvalət etdilər. Həmin qatil Camqarovu Moskvada kilsənin qapısı yaxınlığında qətlə yetirdi.

Beləliklə də, qımdatxanaların muzdlu qatilləri neçə-neçə günahsız ermənilərin və rusların ölümünə də bais olurdular.

ƏLAVƏ2 (2 Mətndə əlavələr haşiyə kimi göstərilir): Hicri 1321-ci (miladi 1903) ildə rus dövləti Qafqaz vilayətindəki kilsələrin əmlakını zəbt etmək istəyirdi. O vaxt bütün Qafqaz şəhərlərində olan erməni icmalarının başçıları toplaşıb rus dövlətinin niyyətinə qarşı durmaq və onun həyata keçirilməsinə mane olmaq qərarına gəldilər. Bunun nəticəsində dövlət tərəfindən erməni milliyyətindən olan xeyli adamlar qətlə yetirildi. Bununla bərabər, bir çox erməni icmalarının tanınmış başçıları tutularaq Sibirə göndərildi. Kilsələrin əmlakı isə zəbt olunub dövlət sərəncamına verildi.

ƏLAVƏ: Həmin göstərilən bu ildə şəhərlərdə çox nahaq qanlar töküldü, xalqlar bir-birinə çox zülmlər etdilər. Bunun xoşagəlməz təsiri hər tərəfi bürüdükcə insanları xoş və rahat həyatdan məhrum edirdi.



Mir Möhsün Nəvvab



Xüsusən, Mancuriya torpağında rus tayfasından nə qədər insanların nahaq qanları töküldü, gəmiləri dənizlərdə batırılıb məhv oldular, neçə-neçə şəhərlər və kəndlər xarabalıqlara çevrildi.



Bu tarixdə İran vilayətinə xəstəlik düşüb, sayı həddi-hesaba gəlməyən insanlar tələf oldular.

Bu günlərdə bəndeyi-aciz Nəvvab Mir Möhsün qardaşı Hacı Mirzə Abutalıb xanı Tehranda Amas adlı öz nökəri yatdığı yerdə öldürüb, bacardığı qədər cəvahiratdan və nəqd puldan götürüb qaçıb. Amma bu cinayətdən qaça bilməyib, rus divanxanasının əlinə keçib.

ƏLAVƏ: Hicri 1322-ci (miladi 1904) il tarixdə, iyunun 16-da Moskva şəhərinə bir dolu yağdı ki, dolunun hər bir dənəsinin ağırlığı təxminən bir girvənkəyə yaxın idi.

Ə L A V Ə: 1904-cü il iyulun 3-də rus padşahının oğlu oldu. Onun adını Aleksey qoydular.

### 1904-cü İLDƏ BAKIDA ERMƏNİLƏRLƏ MÜSƏLMANLAR ARASINDA BAŞ VERMİŞ MÜNAQİŞƏ

Əvvəla bunu bilmək lazımdır ki, İrəvan şəhərinin erməniləri çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirləri fitnə-fəsad ilə yoğrulmuş adamlardır. Hansı vilayətdə ki bunlar tapılır, mütləq orda bir ədavət və iğtişaş olacaq. Qafqaz vilayətlərində nə qədər iğtişaş və münaqişələr baş verirdisə, onların birinci səbəbkarı İrəvan erməniləri olurdu.

Bir gün Bakıda olan İrəvan erməniləri şəhərdə iğtişaş salmağa cəhd göstərirlər. Belə ki, özünü hamıdan qoçaq və igid hesab edən həmin ermənilərdən biri bir müsəlman öldürür. Ondan sonra lovğalanaraq hər yerdə özünü tərifləyir və gördüyü cinayətlə fəxr edirdi. Bir gün o, küçədə getdiyi yerdə 18 yaşlı Bakı camaatından gənc bir oğlan onun qarşısına çıxıb deyir:

— O erməni qoçağı sənsən?

Erməni cavab verir:

— Qoduq, mənəm!

Oğlan bu cavabı eşidən kimi tapançanı çıxarıb, erməninin bədəninə üç güllə yeridərək öldürür. Ermənilər həmin müsəlman oğlanı tutub, döyə-döyə gətirib divanxanaya verirlər. Divanxanada oğlanın üstünü yoxladıqdan və dəfələrlə danışdırdıqdan sonra zindana göndərirlər. Ermənilər divanxanada həmin oğlanı danışdıran məmura rüşvət verib, razı saldıqdan sonra onu bir də divanxanaya gətirib sorğu-sual edilməsini tələb etdilər. Onlar məmurun qarşısında belə şərt qoydular ki, oğlanı məmurun yanına erməni əsgərləri gətirsin. Elə ki oğlanı məmurun yanına gətirdilər, dedi ki, mən bütün həqiqətləri açıb danışmışam. Sən isə bunların hamısını yazdın. İkinci dəfə buraya məni gətirməyə nə ehtiyac vardı? Məmur hirslənərək oğlanın boynuna yumruq vurub əmr etdi ki, onu həbsxanaya aparsınlar. Oğlan məmura yalvarıb xahiş etdi ki, onu erməni əsgərləri ilə göndərməsin. Çünki onlar yolda məni öldürəcəklər. Məmur ona qulaq




asmayıb, zindana aparmağı əmr etdi. Həmin İrəvandan olan erməni əsgərlər isə oğlanı çəkə-çəkə aparıb, bir dar küçədə yerə yıxdılar və süngü ilə dəlik-deşik edib öldürdülər. Sonra isə məmura bildirdilər ki, qaçmaq istəyirdi, biz də öldürdük.

Əlavə: Karxana sahibi olan sabunçulu Ağa Rəzi adlı böyük bir şəxs faytonda küçə ilə gedərkən ermənilərin hücumuna məruz qalaraq öldürülmüşdü. Əhvalatdan xəbərdar olan Bakı əhli bundan çox təsirləndilər. Bundan əvvəl də ermənilər tərəfindən bir sıra cinayətlər törəndiyinə görə xalq arasında böyük iğtişaş baş verdi. Ermənilərin bu düşmənçiliyinə artıq dözməyən camaat bazar-dükanları bağlayaraq cavanlar tüfəng-tapança ilə silahlanıb, üz qoydular erməni camaatının üstünə. Dükanda ələ düşəni dükanda, bazardakını bazarda, küçədəkini küçədə öldürüb, leş-leş üstünə tökdülər.

**Ardı var**

***Səhifəni hazırladı: Tahir Süleyman***

# ƏDALƏTSİZLİYƏ DÖZMƏYƏN KÖVRƏK QƏLBLİ ŞAİR



